Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017



**SÜRƏYYA QACAR** *(1.5.1910, Şuşa – 27.7.2001, Bakı). Xanəndə.*

Səsinin tembri metso-soprano olub. Sürəyya Sədrəddin qızı Qacar 1927-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirib. 1927 – 1939-cu illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub. 30 oktyabr 1954-cü ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülüb. Həm də Ermənistanın Xalq artisti idi.

Əvvəl Üzeyir bəy Hacıbəylinin «Leyli və Məcnun» operasında Leylinin partiya-

*«**Əsli və Kərəm», Üzeyir bəy Hacıbəyli.** Əsli – Sürəyya Qacar*



sını ifa edib. Teatrda solist olduğu on iki il ərzində Üzeyir bəy Hacıbəylinin «Əsli və Kərəm» (Əsli), «Arşın mal alan» (Gülçöhrə), «Məşədi İbad» (Gülnaz), Zülfüqar bəy Hacıbəylinin «Aşıq Qərib» (Şahsənəm) əsərlərinin tamaşalarında çıxış edib.

1940 – 1941 və 1968 – 1984-cü illərdə Azərbaycan Dövlət Filarmoniyasının aparıcı müğənnilərindən və vokal üzrə məsləhətçi-müəllim olub. İranda və İrəvanda da işləyib. 1968-ci ildən opera teatrında məsləhətçi-müəllim olub.